# Dividend siyasəti

Unibank
Sənin Bankın

# 1.Ümumi müddəalar

1.1. “Unibank” Kommersiya Bankı ASC-nin (bundan sonra “Bank” adlanacaq) Dividend Siyasəti (bundan sonra “Siyasət” adlandırılacaq) Bankın ümumi siyasətinin tərkib hissəsi olmaqla, dividend siyasətinin əsas prinsiplərini, dividendlərin ödənilməsi (elan edilməsi) barədə qərarının qəbul olunma, dividendlərin miqdarının hesablanma və onların verilməsi qaydalarını müəyyən edir;

1.2. Bu Siyasət Azərbaycan Respublikasının Mülki Məcəlləsi, “Banklar Haqqında” Azərbaycan Respublikasının Qanunu, Maliyyə Bazarlarına Nəzarət orqanının normativ xarakterli aktları, Bankın Nizamnaməsi və digər bankdaxili korporativ aktların tələblərinə əsasən hazırlanmışdır;

1.3. Bu Siyasət şəffaflıq, əsaslanma, qanunçuluq, ədalətlilik, ardıcıllıq, inkişaf və sabitlik prinsiplərinə əsaslanır.

# 2.Əsas anlayışlar

**Xalis mənfəət** – Bankın maliyyə hesabatlarına əsasən müəyyən edilən və vergilər, o cümlədən digər məcburi ödənişlər ödənildikdən sonra Bankın sərəncamında qalan gəlir;

**Dividend** – Bankın səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi, o cümlədən Bank ləğv edilərkən xalis mənfəəti hesabına formalaşan əmlakın (aktivlərin) bölüşdürülməsi, habelə səhmlərin (payların) xalis mənfəət hesabına artırılan nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödəniş. Bankın ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir (bölüşdürülməmiş mənfəət hesabına formalaşan əmlak istisna olmaqla), həmçinin səhmdarların səhmlərinin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır;

**Səhmdar** – Bankın bir və ya daha çox sayda səhmlərinin qanunvericilik ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxs;

**Səhm** – mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış Bankın nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin Bankın idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızı;

# 2.Əsas anlayışlar

**Adi səhm** – mülkiyyətçisinə Bankın mənfəətinin bir hissəsini dividendlər şəklində almaq, Bankın fəaliyyətinin idarə olunmasında iştirak etmək və Bankın ləğvindən sonra qalan əmlakının bir hissəsini əldə etmək hüququnu verən səhm növü. Bankın adi səhminin sahibi olan səhmdarının qanunvericiliklə müəyyən edilmiş qaydada Bankın xalis mənfəətindən dividend almaq, Bankın fəaliyyətinə xitam verildikdə Bankın kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış lakin ödənilməmiş dividendlərin, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq hüququ vardır;

**İmtiyazlı səhm** – Bankın fəaliyyətinin nəticəsindən asılı olmayaraq,  mülkiyyətçisinə səhmin nominal dəyərinin sabit faizi şəklində dividend almasına təminat verən, Bankın ləğvindən sonra qalan əmlakının bir hissəsini almaqda digər səhmdarlara nisbətən üstünlük hüququnu, habelə səhmlərin buraxılış şərtlərində və Bankın nizamnaməsində nəzərdə tutulan digər hüquqlar verən (Qanunvericilikdə nəzərdə tutulan hallardan başqa səsvermə hüququ verməyən) səhm növü. Həmin vəsaitin ödənilməsini təmin etmək üçün Bank öz vəsaitləri hesabına xüsusi fondlar yarada bilər;

**Xalis aktivlər** – Prudensial hesabatı üzrə hesablanmış xalis aktivlər;

# 3.Siyasətin əsas prinsipləri

**Şəffaflıq** – dividendlərin hesablanması və ödənilməsinə dair qərarların qəbulunda iştirak edən tərəflərin vəzifə və öhdəliklərinin müəyyən olunması;

**Ədalətlilik** – dividendlərin elan edilməsi, məbləği və ödəniş qaydaları haqqında məlumatın alınması üçün bütün səhmdarların Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində bərabər hüquqla təmin edilməsi;

**Qanunçuluq** – dividend siyasətinin qüvvədə olan qanunvericiliyə, habelə bu Siyasətlə müəyyən olunmuş prosedur və prinsiplərə uyğunluğunun təmin olunması;

**Dayanıqlı inkişaf** – dividend siyasətinin Bankın strateji məqsədlərinə uyğun yenilənməsi.

# 4.Dividend ödənilməsinin müəyyən edilməsi

4.1. Dividendlərin ödənilməsi haqqında qərarla (elanla) dividendlərin ödənilməsi zamanı səhmlərin sahibləri ilə əlaqədar reyestr məlumatlarının əldə olunacağı tarix və səhm üzrə hesablanılmaqla ödəniləcək dividendlərin həcmi müəyyən edilir.

4.2. Adi səhmlərə münasibətdə dividendlərin ödənilməsinə (və ya ödənilməməsinə) dair qərar verilməsi Bankın hüququdur.

4.3. Bankın səhmdarlarına dividendlər aşağıdakı əsaslarla ödənilir:

4.3.1. Bankın maliyyə vəziyyəti stabil və müsbət qiymətləndirildikdə, həmçinin inkişaf perspektivi, o cümlədən qanunvericiliyə uyğun qaydada hazırlanmış maliyyə hesabatları ilə müəyyən edilən Bankın xalis gəliri mövcud olduqda;

4.3.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq dividendin ödənilməsi üçün məhdudiyyət olmadıqda.

# 5.Dividendlərin hesablanması qaydası

5.1. Dividend, hər bir səhm üçün Azərbaycan manatı ilə hesablanır.

5.2. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

5.3. Hər bir səhmdara düşən dividendlərin həcmi, bir adi səhmə düşən dividend məbləğini müvafiq səhmdarın sahib olduğu adi səhmlərin sayına vurmaqla müəyyən edilir.

5.4. Bank, adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.

5.5. Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququ verən imtiyazlı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür.

# 6.Dividendlərin ödənilməsinə (elan olunması) dair qərarın qəbulu

6.1. Bank, Nizamnaməsində müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlərin verilməsinə dair qərar qəbul edə bilər.

6.2. Maliyyə ilinin nəticələrinə görə mənfəətin dividend şəklində səhmdarlar arasında bölüşdürülməsinə dair qərar Bankın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən qəbul edilir. Bu zaman müvafiq qərar kənar auditor tərəfindən təsdiqlənmiş (aralıq dividend ödənişləri üzrə kənar auditor tərəfindən yoxlanılmış) illik (aralıq) maliyyə hesabatları və ya prudensial məqsədlər üçün Mərkəzi Banka təqdim edilmiş illik (aralıq) maliyyə hesabatları əsasında qəbul edilir. Bu zaman hesabatlarda xalis mənfəət fərqli olduqda, bank tərəfindən aşağı olan mənfəət əsas götürülür.

6.3. Bankın dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın Bankın Səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə qəbul qəbul edildiyi gündən etibarən yaranır və 30 (otuz) gün müddətində icra edilir. Səhmdarların tərkibinin dəyişməsi dividendlərin ödənilməsi barədə qərarın bu Məcəllə ilə müəyyən edilmiş müddətdə və qaydada icra olunmasına təsir etmir.

6.4. Elan edilmiş dividendlərin səhmdarlara ödənilməsi Bankın öhdəliyidir.

6.5. Dividendlərin ödənilməsinə dair qərarda aşağıdakılar müəyyən edilməlidir:

- Dividendlərinin ödənişi elan edilən səhmlərin növü;
- Dividendlərin ümumi məbləği;
- Ödənişin müddəti;
- Səhmlərin sayı və hər bir səhm üzrə dividendin məbləği;
- Ödənişin forması (pul, səhm və s.).

# 7.Dividendlərin ödənilməsi (elan edilməsi) və ödənilməsinə məhdudiyyətlər

7.1. Qanunvericiliklə dividendlərdən vergilərin tutulması nəzərdə tutulmuşdursa, səhmdarlara ödəniləcək dividend məbləğindən tutulacaq vergilər nəzərə alınmadan dividendlər Bankdaxili elan edilir.

7.2. Dividend səhmdarlara qanunvericilikdə nəzərdə tutulmuş vergilər tutulduqdan sonra nağdsız qaydada ödənilir.

7.3. Bank tərəfindən dividend ödənişi, müvafiq nəzarət orqanını bu barədə qərar qəbul edilən tarixdən ən geci 5 (beş) iş günü müddətində məlumatlandırmaqla həyata keçirilir.

7.4. Bank aşağıdakı hallarda səhmlər üzrə dividendlərin ödənişini elan edə və ya elan edilmiş dividendləri ödəyə bilməz:

- Bankın xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa;
- Bankın xalis aktivlərinin dəyəri dividendlərin ödənilməsi nəticəsində onun nizamnamə kapitalının miqdarından az olacaqsa;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hallarda.

# 8.Yekun müddəalar

8.1. Bu Siyasət Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edildiyi tarixdən qüvvəyə minir.

8.2. Bu Siyasətə əlavə və dəyişikliklər Səhmdarların Ümumi Yığıncağının qərarı ilə mümkündür.

8.3. Bu Siyasət elan olunduğu tarixdən etibarən bundan öncə bu prosesi tənzimləyən bütün siyasət və ona dəyişikliklər qüvvədən düşmüş hesab edilsin.

8.4. Əgər bu Siyasətin hər hansı bir bəndi və ya maddəsi Azərbaycan Respublikasının Qanunvericiliyi və ya Bankın Nizamnaməsi ilə ziddiyyət təşkil edirsə, bu zaman həmin bənd və ya maddəyə müvafiq dəyişikliklər edilənədək Azərbaycan Respublikasının Qanunvericiliyi rəhbər tutulmalıdır.

8.5. Bu Siyasətdə nəzərdə tutulmayan məsələlər Azərbaycan Respublikasının Qanunvericiliyi ilə tənzimlənir.